# Qəbələ sürətli inkişafın yeni mərhələsində

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2014-cü ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi

(Əvvəli 5-ci səhifədə).

**Qəbələnin gözəl təbiəti burada turizmin inkişafı üçün əlverişli şərait yaradır. Burada müvafiq infrastruktur yaradılmasına, dünya standartlarına uyğun mehmanxanalar tikilməsinə, abad yollar salınmasına xüsusi diqqətlə yanaşılmalıdır.**

**İlham Əliyev.**

Fevralın 17-dən mayın 1-dək keçirilən dispanzerizasiyaya 65.419 nəfər cəlb edilmişdir. Rayon əhalisinin müayinəsinə müalicə diaqnostika mərkəzinin, mərkəzi xəstəxananın, eləcə də yaşayış məntəqələrindəki səhiyyə müəssisələrinin mütəxəssisləri və səyyar həkim briqadaları cəlb olunmuşdur. Müayinələrin nəticəsinə əsasən 4.647 nəfərə stasionar müalicəyə, 148 nəfər isə Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara göndərilmişdir.

Qəbələ Rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən 2014-cü il ərzində profilaktik peyvəndlərdən hepatit B-ə qarşı 1455 peyvənd, göyösgörək, difteriya və tetanusa qarşı 1486 peyvənd, qızılça, parotit, məxmərəyə qarşı 3122 peyvənd, polimelitə qarşı 7872 peyvənd, 6 yaşlı uşaqlar arasında difteriya və tetanus əleyhinə 1423 peyvənd, doğumun 4-7-cı günündə BSJ-yə qarşı 1435 nəfərə peyvənd edilmişdir.

Ötən il GEM-nin bakterioloji laboratoriyasında yoluxucu xəstəliklərin aşkar edilməsi məqsədilə 1412 müayinə aparılmışdır. Bu müayinələr zamanı törədicisi məlum olan 32 kəskin bağırsaq infeksiyası, 47 törədcisi məlum olmayan kəskin bağırsaq infeksiyası, 11 ilkin brüsellyoz və 25 xroniki brüselyozlu xəstə aşkar edilmişdir.

Gigiyena epidemiologiya mərkəzinin laboratoriyasında 70 su nümunəsi bakterioloji müayinə olunmuşdur.

Qəbələ Müalicə Diaqnostika Mərkəzinə 2014-cü il ərzində xəstə gəlişlərinin sayı 13.616, endoskopik müayinələrin sayı 849, stomotoloji kabinetdə müalicə olunan xəstələrin sayı 499, stasionar şöbəyə daxil olan xəstə sayı 936, aparılmış cərrahiyyə əməliyyatlarının sayı 935 olmuşdur. Onlardan 129-u laparoskopik əməliyyatlardır. Hemodializ şöbəsində 61 xəstədə aparılmış hemodializ seanslarının sayı 560, şüa diaqnostika şöbəsində ultrasəs müayinələrinin sayı 15626, rentgen müayinələrin sayı 16345, kompüter tomoqrafiyası müayinələri 1248, kliniki laboratoriyada 9181 xəstədə müayinələrin sayı 351008, fizioterapiya şöbəsində proseduraların sayı isə 3.353 olmuşdur.







*Mirzəbəyli-Çuxur Qəbələ-Dizaxlı-Çarxana avtomobil yolunun açılışı.*

Qəbələ rayon Gənclər və İdman İdarəsi tərəfindən 2014-cü il ərzində 65 tədbir həyata keçirilmişdir. Bunlardan 30 tədbir gənclərlə iş sahəsini, 35 tədbir isə kütləvi bədən tərbiyyəsi və idman sahəsini əhatə edir.

İl ərzində Qəbələdə bir sıra beynəlxalq və respublika səviyyəli yarışlar keçirilmişdir. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilmiş "Tour d'Azerbaidjan-2014" Beynəlxalq velosiped turniri, Yeniyetmələrin IX Respublika Oyunlarının proqramına daxil olan boks idman növü üzrə 13-14 yaşlı yeniyetmələr arasında zona yarışları, Yeniyetmələrin IX Respublika Oyunlarının proqramına daxil olan yunan-roman güləşi üzrə 2000-2001-ci il təvəllüdlü yeniyetmələr arasında zona yarışları, 15 yaşa qədər futbolçulardan ibarət komandalar arasında III Beynəlxalq Qəbələ Kuboku Turniri, cüdo idman növü üzrə Qəbələ açıq turniri, ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilmiş "Gənc xilasedici və yanğınsöndürən" adlı III respublika birinciliyi və "Gənc xilasedici" II beynəlxalq yarışı, "Gabala Fight Series" kikboks üzrə Beynəlxalq turniri, Olimpiya atıcılq növləri üzrə Dünya Kuboku yarışlarının final mərhələsi və s. belə idman tədbirlərindəndir.

"Vətənin Müdafiəsinə Hazıram" Poliatlon çoxnövçülüyü üzrə respublika çempionatının zona mərhələsində rayon komandası II yerə, "Xəmsə" Milli İntellektual oyunu üzrə gənclər arasında keçirilən VII Azərbaycan Çempionatının zona mərhələsində "Uğur" komandası II yerə, həmin oyunların televiziya versiyasında komandamız II yerə layiq görülmüşdür.

2014- cü ildə Qəbələ Olimpiya və İdman Kompleksinin xidmətlərindən 57.522 nəfərgün istifadə olunmuşdur ki, bir günlük xidmətlərdən istifadə edənlərin orta sayı 247 nəfər təşkil etmişdir. Gündəlik xidmətlərdən istifadə edənlərin 95 nəfəri ödənişli əsasla, 146 nəfəri isə ödənişsiz əsasla həyata keçirilmişdir.

Kompleksin xidmətlərindən ödənişsiz əsasla istifadə edənlər Olimpiya İdman növləri üzrə təşkil edilmiş seksiyalardakı idmançılar olmuşdur. Qəbələ Olimpiya İdman Kompleksində 5 Olimpiya İdman növü üzrə (sərbəst güləş, yunan-roma güləşi, boks, cüdo və taekvando) ödənişsiz seksiyalar fəaliyyət göstərir ki, bu seksiyalarda 215 nəfər məktəb yaşlı uşaqlar idmanla məşğul olurlar.

2014-cü ildə Qəbələ Olimpiya İdman Kompleksində 28 idman tədbiri keçirilmişdir. Bu tədbirlərdən 5-i rayon, 22-i respublika, 1-i beynəlxalq səviyyəli tədbirlərdir.

Qəbələ Peşə Məktəbini 2014-cü ildə 90 nəfər məzun bitirmişdir. Onların 38 nəfəri rayonun idarə, müəssisə və özəl təşkilatlarında işlə təmin olunmuş, 4 nəfəri ali və orta ixtisas təhsili müəssisələrinə daxil olmuş, 11 nəfəri hərbi xidmətə çağırılmışdır. Məzunların 37 nəfərinə sərbəst işədüzəlmə imtiyazı verilmişdir.

2014-2015-ci tədris ilində məktəbə şagird qəbulu planına əsasən 4 peşə üzrə 80 nəfər qəbul edilmişdir.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzini 2014-cü idə 151 nəfər məzun bitirmişdir. Onların 42 nəfəri ümumi orta təhsil bazasından, 109 nəfəri isə tam orta təhsil bazasından olmuşdur.

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində keçən il rus danışıq dili, kompüter, rəsm və əl işləri dərnəkləri fəaliyyət göstərmişdir. Hesabat dövründə mərkəz tərəfindən rayonun qəsəbə və kəndlərində, "Məişət zorakiliğı qurbanlarının müdafiəsi", " Erkən evliliklər və onların fəsadları", " Uşaq hüquqları", "Sağlam həyat tərzi və reproduktiv sağlamlıq" mövzularında tədbirlər keçirilmiş və həmin tədbirlərdə 3246 nəfər iştirak etmişdir.

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzində 2014-cü il ərzində 15 beynəlxalq təşkilat və 48 milli QHT ilə əməkdaşlıq edilərək vətəndaş cəmiyyətinin inkişafına xidmət edən layihələr həyata keçirilmişdir. İl ərzində mərkəzin fəaliyyətindən 136 QHT bəhrələnmişdir. Rayonumuzun 32 bələdiyyəsi mərkəzlə əməkdaşlıq etmiş və birgə layihələrə cəlb olunmuşdur.

(Ardı 7-ci səhifədə).